# Vaqif Səmədoğlunun yubileyinə həsr edilmiş ədəbi-bədii gecə keçirilib











İyunun 28-də Opera Studiyasında görkəmli Xalq şairi Vaqif Səmədoğlunun 85 illik yubileyinə həsr edilmiş ədəbi-bədii gecə keçirilib. Azərbaycan Yazıçılar Birliyi və Vaqif Səmədoğlu Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə tanınmış qələm adamları, ziyalılar, musiqiçilər və çoxsaylı poeziyasevərlər iştirak edib.

Gecənin aparıcısı, "Qobustan" jurnalının baş redaktoru, yazıçı Pərvin Vaqif Səmədoğlunun həyat və yaradıcılığı haqqında danışıb. O, qeyd edib ki, Vaqif Səmədoğlu sənətinin vurğunları üçün bu gün xüsusi bir hadisədir: "Ona görə ki, Vaqif Səmədoğlunun ədəbiyyatımızda, mədəniyyətimizdə çox özəl bir yeri var. Onun şeirləri, dramaturgiyası, onun Azərbaycan kinosu və teatrının inkişafı üçün gördüyü böyük işlər əlbəttə ki, zamanla yada salınmalı, zamanla tamaşaçılara yenidən, yeni gözlə, yeni baxışla təqdim olunmalıdır."

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Vaqif Səmədoğlu yaradıcılığının qüdrətindən danışıb. O, Vaqif Səmədoğlunun poeziyayla yanaşı, sənətin bütün istiqamətlərində öz fərqliliyi, unikallığı ilə seçildiyini vurğulayıb. Xalq yazıçısı tədbir boyu aparıcının suallarını cavablandırıb və Vaqifin uşaqlıq, gənclik illərini yada salıb. Müqəddəs dostluqlarından, başlarına gələn maraqlı əhvalatlardan söz açıb. Dost itkisinin ağır olduğunu xüsusi qeyd edən Xalq yazıçısı, Vaqifə həsr etdiyi şeiri oxuyub.

Qiraət ustası Kamran Yunus Vaqif Səmədoğlunun müxtəlif illərdə qələmə aldığı şeirləri səsləndirib.

Azərbaycan Yazıçılar Birliyinin I katibi, Xalq yazıçısı Çingiz Abdullayev Vaqif Səmədoğlunu yaxından tanıdığı, dostluq etdiyi, vaxtilə onunla bir yerdə işlədiyi üçün özünü xoşbəxt adlandırıb. Çingiz Abdullayev belə gecələrin əhəmiyyətli olduğunu bildirməklə yanaşı, Vaqif Səmədoğlunun xatirəsinin onu sevənlərin qəlbində daim əziz tutulacağını, yaşayacağını da qeyd edib.

Ədəbi-bədii gecədə Xalq şairinin sözlərinə yazılan mahnılar ifa olunub. Xalq artisti Faiq Ağayevin, Əməkdar artist Lalə Məmmədovanın, Zabitə Alıyevanın ifaları alqışlarla qarşılanıb.

Gecədə Vaqif Səmədoğlunun ssenarisi əsasında çəkilmiş "Bəxt üzüyü" filmindən fraqmentlər təqdim olunub. Filmin baş qəhrəmanı obrazını canlandıran xalq artisti Valeh Kərimov ona populyarlıq qazandıran "Moşu" obrazından və Vaqif Səmədoğlu yaradıcılığında satiranın gücündən söz açıb.

Tədbirdə, həmçinin Xalq şairinin şəxsi arxivindən götürülən nadir kadrlar, onun məşqlərdə, film çəkilişlərində iştirakını ehtiva edən fraqmentlər də təqdim olunub.

Vaqif Səmədoğlu Mərkəzinin rəhbəri, şairin ömür-gün yoldaşı Nüşabə Vəkilova Mərkəzin fəaliyyəti, nəşr etdirdikləri kitablar, həyata keçirdikləri yeni layihələr barədə tədbir iştirakçılarına məlumat verib. Nüşabə Vəkilova Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə və bütün tədbir iştirakçılarına minnətdarlığını ifadə edib.

Qeyd edək ki, bu il mayın 25-də III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında Azərbaycan Yazıçılar Birliyi tərəfindən Vaqif Səmədoğlunun 85 illik yubileyinə həsr edilmiş tədbir keçirilmişdi.

AYB.az